https://doi.org/10.59849/3006-2403.2023.9.60
UOT 82-1. 512. 162

*Zəhra Abas qızı Allahverdiyeva*
*Filologiya üzrə fəlsəfə doktoru,dosent*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*
*Bakı ş., H.Cavid pr., 117*
*https://orcid.org/0000-0002-8697-0395*
*E-mail: zahra.allahverdiyeva@mail.ru*

# NİZAMİ GƏNCƏVİ VƏ XACU KİRMANİ ƏSƏRLƏRİNDƏ ABDAL (DƏRVİŞ) OBRAZI

*Məlumdur ki, Abdal- ابدال - dərviş, qalandar - Allaha yaxın və Allah tərəfindən seçilən şəxsiyyətlərə deyilir. Sufi ədəbiyyatında bu ifadə - Allah dostu, övliya və sair adlarla kamillik dərəcəsinə yüksəlmiş sufilərə aiddir. Abdallar (eftalitlər) türk şamanizmində İslamdan əvvəl də mövcud olmuşdur. Bəzi tarixçilərin qeyd etdiyi kimi, Abdallar və ya "Ağ Hunlar", V-VI əsrlərdə Orta Asiyada ən qədim türk dövlətlərindən birini qurmuşdur. Elmi ədəbiyyatda abdal dərvişlərlə bağlı bəzi araşdırmalar vardır.*

*İslamdan əvvəlki dövrlərdə dini-fəlsəfi inanclarda mənəvi kamillik və onun fəlsəfi qaynaqları ilə bağlı məsələlər klassik ədəbiyyatımızda da öz əksini tapır. Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində Qafqazda qədim Abdal yaşayış məskəninin mövcud olduğunu göstərmişdir. Qədim Cirram dağı, İnhiraq dağı, Buğra meydanı və Rumkala səhrasını xatırladan Nizami türklərin köhnə məskənlərini göstərir, əski Abdal inancları haqqında məlumat verir.*

*XIV əsrdə Nizami Gəncəvinin "Xəmsə" mövzu və ideyalarını davam etdirən İran şairi Xacu Kirmaninin yaradıcılığında abdal obrazı müasir simvollarla canlandırılır. Məqalədə hər iki şairin islami-təsəvvüf dünyagörüşünün tanıdılmasında məcazi rol oynayan abdal-dərviş obrazları tədqiqata daxil edilmişdir.*

*Açar sözlər*: Nizami Gəncəvi, Xacu Kirmani, "Xəmsə", abdal

Məlumdur ki, Abdal- ابدال - dərviş, qələndər - Allaha yaxın, Allahın sevdiyi bəndələrindən olan zümrəyə deyilir. Təsəvvüf ədəbiyyatında bu termin - Allah dostu, övliya və sair adlarla kamillik mərtəbəsinə ucalmış sufiləri bildirir. İslam ensiklopediyasında göstərilir ki, "Abdal - kəlməsi ərəbcə - bədil, yəni "əvəz edici" sözündəndir. Türkcədə "karşılık, birinin yerine keçən" mənasında işlənmişdir" [12, s.58].

Abdallar (Eftalitlər) İslamdan öncə Türk şamanlığında mövcud olmuşdur. Bəzi tarixçilərin qeyd etdikləri kimi, abdallar, yaxud "Ağ hunlar" eramızın V-VI əsrlərində Orta Asiya ərazisində ən qədim türk dövlətlərindən birini yaratmışlar. Aydoğdu Qurbanov yazır: "Bu dövlətin sərhədləri şərqdən qərbə: Xotəndən (Şərqi Türküstan) İran sərhədlərinə qədər və şimaldan cənuba: indiki Qazaxıstan çöllərindən şimal-qərbi Hindistana qədər, yəni Orta Asiyanın əksər əraziləri, Əfqanıstan, Pakistan, Hindistan və Çinin bir hissəsi (Şərqi Türküstanın bir çox vahələri). Lakin o dövrün digər köçəri imperiyaları kimi Eftalitlər dövləti də uzun sürmədi, şiddətli rəqabətdə başqa imperiyalara boyun əydi. Eftalit mədəniyyətinin izləri Əfqanıstanda 2001-ci ildə dağıdılmış nəhəng Bamiyan Budda heykəlləri idi" [Курбанов: 2006, s.28-29].

Bəzi İran alimlərinin skifləri irandilli hesab etdiklərini və faktlara məhəl qoymadan yanlış və əsasız iddialar irəli sürdüklərini göstərən Qiyasəddin Qeybullayev haqlı olaraq yazırdı: "Onlar hər vasitə ilə sübut etməyə çalışırlar ki, Ağ Hunlardan əmələ gələn Orta

Asiya eftalitləri -Abdallar - irandilli idilər, V əsrin əvvəllərində Orta Asiyadan meydana gəlmişlər! Amma eyni zamanda, yazırlar ki, oğuz tayfaları Aral bölgəsində hun-eftalist tayfaları əsasında yaranmışdır. Belə ki, "möcüzələr" baş vermişdir: irandilli tayfalardan türk-oğuzlar yaranmışdır! Şübhəsiz ki, anaxronizmdir" [4, s. 131].

Tədqiqatçı öz araşdırmalarında həmçinin sübut edir ki, Qafqaz Albaniyasında hələ eradan əvvəl yaşaması ehtimal olunan abdalların adına (heftal/heptal/eftal şəklində) Qafqazda, Azərbaycan ərazisində rast gəlmək mümkündür [3, s. 31].

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində indi də Abdal Gülablı, Abdal dağı, Abdalanlı, Abdallar, Abdallı və sair yer, dağ və çay adlarını bildirən toponimlər mövcuddur.

Abdallıq - əxlaq və mənəvi kamillik haqqında islamdan öncə formalaşmış fəlsəfi dünyagörüşdür. Abdal - xoş niyyətli və gözəl əxlaqlı, saf mənəviyyata malik, səxavət yiyəsi, dünya malına gözü tox, aza qane olan, başına gələn bəlanı Allahın yazdığı qəza-qədər kimi qəbul edib səbr göstərən, hikmət yiyəsi və mərdanə şəxslərə deyilirdi.

Məlumdur ki, Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində Azərbaycanda qədim abdal məskəninin olduğundan bəhs etmişdir. Şair öz əsərində qədim Cirrəm dağı, İnhiraq dağı, Buğra meydanı və Rumkala çölündən danışmaqla, türklərin qədim məskənlərini sadalamış və qədim abdal inancları haqqında məlumat vermişir.

در آن محراب کو رکن عراق است
کمربند ستون انشراق است
ز خارا بود دیری سال کرده
کشیشانی بدو در سالخورده
فرود آمد بدان دیر کهن سال
بر آن آیین که باشد رسم ابدال
[9, s.103].

İraqın dayağı olan o mehrabda,
Kəmər bağlayan İnhiraq sütunudur.
Daşdan (tikilmiş) köhnə bir monastr vardı,
Orada yaşlı (qoca) keşişlər vardı.
Abdal qaydasına uyğun ayinlə
O köhnə monastıra tərəf yaxın gəldi.

Abdal xarakterinin özəlliklərini aydınlaşdırmaq üçün, bu fəlsəfi təlimin qaynaqları və müxtəlif dövrlərdə tarixi inkişafını izləmək maraq doğurur. Abdallığın qədim kökləri mövcuddur. İslamdan öncə, Zərdüştün təlimində, həmçinin xristian türklərin inanclarında yer aldığı diqqəti cəlb edir.

Öncə qeyd edim ki, Zərdüştlüyün, yəni "Avesta"nın Azərbaycanda yaranması, sonradan isə işğalçılar tərəfindən bu abidənin başqa dilə tərcümə olunaraq orijinalının yandırılması və başqa ölkələrə yayılması haqqında orta əsr mənbələri və daha sonra bir çox alimlər tərəfindən qeyd edilmişdir.

İran alimi İbrahim Purdavud yazır: "Zərdüşt yunan mənbələrində Qazaka, ərəblərdə Cənzə, müasir dövrdə isə Təxti Süleyman adlanan yerdə doğulmuşdur. Elə bu səbəbə görə də Urmiya gölünün suyu həmin dövrdə müqəddəs hesab edilirdi. Qazaka atəşgahları içərisində Azərgüşnab məbədi daha məşhur idi" [7, s.120 – 130].

Təəssüf ki, Avropa və Rusiya tədqiqatçıları, o cümlədən XIX əsrin axırlarında K. Geldner, Darmsteter, Ç. Bartolome, S. Sokolov kimi alimlər "Avesta"nın mənbəyini İran mənşəyinə bağlamış, onun orijinal mətnlərinin vaxtilə tərcümə olunduğunu nəzərə almamış, əsərin indiki leksik xüsusiyyətlərinə əsasən, qədim farsdilli mənbə olaraq qəbul etmişlər. Bu iddiaların əksinə olaraq, XX əsrdə qədim Şərq tarixi, o cümlədən Misir və Assuriya mədəniyyətlərinin öyrənilməsi sahəsində görkəmli şərqşünas alim Struve "Avesta"nın

Azərbaycan ərazisində yazıldığını təsdiq edir və "bu qədim dini inancın mənbəyinin Azərbaycan və Xəzəryanı ərazilər" olduğunu yazır [13, s.31].

Başqa bir görkəmli şərqşünas alim V.İ. Abayev "Avesta" üzərində uzun sürən araşdırmalardan sonra belə bir nəticəyə gəlmişdir ki, "Avesta"da nə Persiya, nə də Midiya haqqında heç bir xatırlama yoxdur. Yalnız Tur xalqı və turlar xatırlanır ki, bunlar da qədim skiflər, yəni türklərdir. Bundan əlavə, Avesta mətnində Xarəzm, Soqdiana (Orta Asiya), Araxoziya (Qəndəhar), Dranqiana (Zərənc) ərazi və şəhər adları çəkilir [1, s.22].

Nizami Gəncəvi "Yeddi gözel" əsərində ocaqda yanan odu vəsf edərkən, bənzətməsində çox incə şəkildə Zərdüştün kimliyinə işarə etmişdir:

ترکی از اصل رومیان نسبش
قرهالعین هندوان لقبش
مشعل یونس و چراغ کلیم
بزم عیسی و باغ ابراهیم
[11, s.41]

Türkdür, əsil-nəsəbi Rumlu,
Hindlilər "Qürrəl-eyn" ləqəbi vermişlər.
Yunusun məşəli və Kəlimin çırağıdır.
İsanın bəzmi və İbrahimin bağıdır.

Abdal kəlməsi təsəvvüf terminlərinə aid lüğətlərdə həmçinin yeddi təbəqə göydə əyləşən yeddi peyğəmbərə də şamil edilir və Əl-Ərəbinin (1165-1240) "Əl-fütuhatül-Mekkiyye fi mərifəti'e-esrari'l-malikiyye ve'l -mələkiyye" əsərinə istinadən qeyd olunur:

" ...Abdal yedidir, ne artar, ne eksilirler. Allah Teala yedi iklimi bunlarla korur. Her biri bir iklimde bulunur. Her biri gücünü yedi semanın birinde bulunan peygamberden alır ki, bunlardan birincisi Halil (İbrâhîm) s.a. dir. Birinci iklim onundur. Ve onların yedinci iklimin sâhibine kadar sıralamada en büyük olanıdır. İkincisi Kelîm (Mûsa) ə.s., üçüncüsü Hârun (ə.s.) dördüncüsü İdris (ə.s.), beşincisi Yusuf (ə.s.), altıncısı İsa (ə.s.), yedincisi Âdem'dir. Onların her biri ilahi bilgiyle yıldızlar ve onların takdir edildikleri yörüngelerindeki hareketleri hakkındakı bazı sırları bilirler." [6, s.60-62].

"Nəfsə tabe olmamaq, mal-mülk, şöhrət dərdi çəkməmək" (Əhməd Kabaklı), insanlar arasında dini-irqi ayrı-seçkilik qoymamaq, yaradılışa mərhəmət, dünyada eşq və barışı təbliğ etmək abdal dünyagörüşünün əsas qayəsidir.

İslami dövr təsəvvüf fəlsəfəsində abdallıq ifadəsinin – dərvişlik termini ilə əvəzlənməsi diqqəti cəlb edir. Təsadüfi deyildir ki, Nizami "dərvişliyin mayası burdadır" söylədiyi "Sirlər xəzinəsi"ndən başlayaraq, bütün əsərlərində insanın yaşam tərzində riyazəti əsas tutur, bu yolla insanın yüksək dərəcəyə çatmasını təbliğ edirdi. Nizami "Yeddi gözəl" əsərində Allaha ünvanladığı hissədə yazır:

راز گویم به خلق خوار شوم
با تو گویم بزرگوار شوم
ای نظامی پناهپرور تو
به در کس مرانش از در تو
سر بلندی ده از خداوندی
همتش را به تاج خرسندی
تا به وقتی که عرض کار بود
گرچه درویش تاجدار بود
[11, s.7]

Sirri xalqa desəm, xar olaram,
Sənə desəm ucalaram!
Sən ey Nizamini bəsləyən Allah! Onu,

Öz qapından başqa, kimsə qapısına salma!
Öz İlahi qüdrətinlə, (ona) baş ucalığı ver,
Himmətini  (onun başına) xoşbəxtlik tacı elə!
İşini (əsərini) nümayiş etdiyi zaman,
Dərviş olsa da, tacidar olsun!

Sufizmin "könül zənginliyi", "aza qane olma", "qəlbin ucalığı" kimi məsələləri Nizami Gəncəvinin yaratdığı dərviş, yaxud zahid obrazı vasitəsi ilə gündəmə gətirilir. Nizaminin "Leyli və Məcnun" əsərində verdiyi bir hekayə diqqəti cəlb edir: "Bir gün padşah bir zahidin evinin yanından keçirdi. Şah zahidi görüb yanındakı adamlardan soruşdu ki, bu adam kimdir? Dedilər, bu dünyadan və insanlardan kənara çəkilərək ac-susuz, yuxusuz qalan məşhur bir zahiddir. Padşah doğru yolu tutdu və öz hacibini ( baş vəzirini) də götürüb zahidin yanına getdi. Hacib şahın yanında qürurlanıb zahidə dedi: "Bu viranə yerdə nə iş görürsən, nə yeyirsən?" Zahid bir çəngə otu göstərdi ki, bunu yeyirəm. Hacib yenə dedi: "Əgər bizə xidmət etməyə razılıq versən, ot yeməzsən." Zahid dilləndi: Bu ot mənim üçün gülşəkərdir! Sən də bu otdan yesən, kimsədən asılı olmazsan." Şah zahidin bu sözlərini eşidib, atından düşdü, gəlib razılıqla zahidin əlini öpdü və onu əzizlədi" Əlbəttə, bu hekayə Nizaminin rəmzlərindən, möcüzələrindəndir və şair hekayənin sonunda belə yazır ki, "Qane olan insan həmişə əziz olar və qane olmaq belə (uca) vilayətdir ( mərtəbədir)"  [11, s.288 ].

Nizami Gəncəvinin "Xəmsə"  ideyalarını XIV əsrdə davam etdirən İran şairi Xacu Kirmaninin yaradıcılığında da abdal obrazı modern simvollarla yenidən canlandırılmışdır. Xacunun "Gül və Novruz"  əsərində:

در آنجا معتکف پیری ز ابدال
چو قطب خلوت گردون کهن سال
به معنی معبد او بیش معمور
به صورت خاک پایش سرمهٔ حور
[14, s.119]

Orada guşəyə çəkilmiş bir abdal qoca,
Qədim  gərdunda qütb kimi xəlvətə (çəkilmişdi)
Mənada  məbəd çox abad idi.
Surətdə ayağının torpağı (hur çeşməsinin) sürməsi idi.

Araşdırmalar göstərir ki, Nizami mövzularından təsirlənən Xacu Kirmani də dövrünün islami-sufi dünyagörüşünün təbliğində abdal-dərviş obrazlarından geniş istifadə etmiş, hər iki şair Şərq xalqlarının, o cümlədən Türk xalqlarının qədim dini-inancları, folkloru, mədəniyyəti və məskənləri haqqında zəngin məlumat vermişlər.

## ƏDƏBİYYAT


1. Абаев В.И. Авеста. Лекции профессора В.И. Абаева (1982-1983 гг.) с анализом и комментариями, «Республика» Цхинвал, 2016, стр.4-35.
2. Айдогды Курбанов. Эфталиты: (очерки истории) Европейский Лом, 2006, 165 стр.
3. Гейбуллаев Г.А. Топонимия Азербайджана (историко-этнографическое исследование), Баку, Элм, 1986, 116 стр.
4. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев (историко–этнографическое исследование) Баку – «Элм» - 1991, 552 стр.
5. Əhməd Əsgər. Abdallar haqqında bəzi mülahizələr. Elmi xəbərlər jurnalı, Lənkəran Dövlət Universiteti, 2019, №1, s. 8-21.
6. Orhan F. Köprülü. Edebiyat. Abdal - *الأبدال* İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfi: 1988, s. 60-62.

7. İbrahim Purdavud. Qatha, Bombey, 1927, səh 120-130. (https://wikipedia.anarim.az/?q=Avesta)
8. M. Fuad Köprülü, "Abdal", Türk Halk Edebiyatı Ansiklopedisi, I, 23-27.
9. Nizami Gəncəvi. Xosrov o Şirin. Mətn-e elmi vo enteqadi: L.Xetaqurov, Baku,1960.
10. Nezami Gəncəvi. "Leyli vo Məcnun", Mətn-e elmi vo enteqadi be səy-e vo ehtemam Əjdər Əli oğlu Əliəsğərzade və F.Babayev.-Mosku: "Edare-ye Enteşarat-e Daneş".- 1965.-288.
11. Nezami Gəncəvi. Həft peykər. Mətn-e elmi vo enteqadi Tahir Məhərrəmov, Mosku, 1987, s.41.
12. Süleyman Uludağ. Tasavvüf. Abdal - الأبدال İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfi, 1988, s. 58-60.
13. Струве В.В. Родина зороастризма, стр.31. Советское Востоковедение V, Издательство Академии Наук СССР, Москва 1948 Ленинград, Стр.5-34.
14. Xacu-ye Kirmani. Gül o Nouruz, be təshih-e enteqadi: Kamal Ayni, Tehran, hicri 1370.


УДК 82-1. 512. 162

*З.А.Аллахвердиева*
*Национальная Академия Наук Азербайджана*
*Институт литературы имени Низами Гянджеви*

## ОБРАЗ АБДАЛА (ДЕРВИША) В ПРОИЗВЕДЕНИЯХ НИЗАМИ ГЯНДЖАВИ И ХАДЖУ КИРМАНИ

*РЕЗЮМЕ*

*Ключевые слова*: Низами Гянджеви, Хаджу Кирмани, «Хамса», абдал

Известно, что Абдал-ابدال - дервиш, каландар - называют личностями, близкими к Богу и избранными Богом. В суфийской литературе это выражение относится к суфиям, поднявшимся на уровень совершенства, носящим имена друга Бога, святого и так далее.

Абдалы (эфталиты) существовали в турецком шаманизме еще до ислама. Абдалы, или «Белые гунны», как их называют некоторые историки, в V-VI веках основали одно из древнейших Тюркских государств в Средней Азии. В научной литературе есть исследования Абдала Дервишей.

В доисламских религиозно-философских верованиях вопросы, связанные с духовным совершенством и его философскими истоками, нашли отражение и в нашей классической литературе. В своей работе «Хосров и Ширин» Низами Гянджеви показал существование древнего поселения Абдал на Кавказе. Напоминая древнюю гору Чиррам, гору Инхирак, площадь Бугра и пустыню Румкала, Низами показывает старые поселения турок и предоставляет информацию о старых верованиях Абдала.

В творчестве иранского поэта Хаджу Кирмани, продолжившего тему и идеи «Хамсы» Низами Гянджеви в четырнадцатом веке, образ Абдала возрождается с современной символикой. В статье включены в исследование образы абдал-дервиша, играющие метафорическую роль в представлении исламско-суфийского мировоззрения обоих поэтов.

UDC 82-1. 512. 162

*Z.A.Allahverdiyeva*
*Azerbaijan National Academy of Sciences*
*Institute of Literature in the Name of Nizami Ganjavi*

THE CHARACTER OF ABDAL (DERVİSH) İN THE WORKS
OF NIZAMI GANJAVI AND KHAJU KIRMANI
*SUMMARY*

*Key words:* Nizami Ganjavi, Khaju Kirmani, "Khamsa", abdal

It is known that Abdal- عبدال - dervish, qalandar - is a group of servants close to Allah, loved by Allah. In Sufism literature, this term (friend of God, saint) refers to Sufis who have risen to the level of perfection. Abdals (Ephthalites) existed in Turkish shamanism before Islam. As some historians have noted, the Abdals, or "White Huns", created one of the oldest Turkic states in Central Asia in the 5th-6th centuries.

There are certain studies in the scientific literature about abdals. The ways of spiritual perfection were explored even before Islam. Nizami Ganjavi in his work "Khosrov and Shirin" indicated the existence of an ancient abdal settlement in the Caucasus. Speaking of the ancient Cirram mountain, Inhiraq mountain, Bugra square and Rumkala desert, Nizami points to the ancient settlements of the Turks and provides information about the ancient abdal beliefs.

In the work of Iranian poet Khaju Kirmani, who continued Nizami Ganjavi's "Khamsa" ideas in the 14th century, the image of abdal is revived with modern symbols. In the article, the images of abdal-dervish, which play a metaphorical role in promoting the Islamic-Sufi worldview of both poets, are involved in the research.

***Daxil oldu: 01.11.2023-cü il***